*UOT 37.0*

***Rəhiməxanım Rzabala qızı Məmmədzadə***
*Azərbaycan Dillər Universitetinin baş müəllimi*
*pedaqogika üzrə fəlsəfə doktoru*
*https://orcid.org/0009-0008-2256-3185*
*E-mail: ragimaxanum.mamedzade@mail.ru*
https://doi.org/10.69682/arti.2025.92(1).81-85

# TƏRBİYƏ TEXNOLOGİYALARINDAN FAYDALANMAQLA TƏLƏBƏLƏRDƏ MƏNƏVİ KEYFİYYƏTLƏRİN İNKİŞAF ETDİRİLMƏSİ İMKANLARI

***Рагимаханым Рзабала гызы Мамедзаде***
*старший преподаватель Азербайджанского Университета Языков*
*доктор философии по педагогике*

# ВОЗМОЖНОСТИ РАЗВИТИЯ НРАВСТВЕННЫХ КАЧЕСТВ У СТУДЕНТОВ С ИСПОЛЬЗОВАНИЕМ ВОСПИТАТЕЛЬНЫХ ТЕХНОЛОГИЙ

***Rahimakhanim Rzabala Mammadzade***
*senior lecturer at the Azerbaijan University of Languages*
*doctor of philosophy in pedagogy*

# OPPORTUNITIES FOR DEVELOPING MORAL QUALITIES IN STUDENTS USING UPBRINGING TECHNOLOGIES

**Xülasə**. İnstitut və universitetlər tələbələrin mənəvi keyfiyyətlərini inkişaf etdirilməsinə nail olmaq üçün yeni tərbiyə texnologiyalardan faydalanmalıdırlar. Bu zaman fəaliyyət formaları pedaqoji vəziyyətə əsasən müəyyənləşdirilir. Bunlara aiddir: söhbət, müzakirə və disputlar, dəyirmi masa ətrafında rəy mübadilələri tələbə konfransları, müsabiqə və yarışlar, ictimai faydalı və yaradıcı iş, ekskursiya və gəzintilər, tematik axşamlar və s. Təlim prosesinin səmərəliliyini şərtləndirən başlıca cəhət tələbələrin auditoriyanın fəal həyatına cəlb olunmasıdır. Bu zaman tələbələr üçün maraqlı olan tərbiyə texnologiyalardan istifadə edilməlidir.
***Açar sözlər**: tələbələr, mənəvi keyfiyyətlər, tərbiyə texnologiyalar, mənəvi keyfiyyətlərin formalaşdırılması, tərbiyə texnologiyalarından istifadə, təlim prosesi, auditoriyadankənar tədbirlər*

**Аннотация.** Институты и университеты должны использовать новые воспитательные технологии для развития нравственных качеств студентов. В это время формы деятельности определяются исходя из педагогической ситуации. К ним относятся: беседы, дискуссии и дебаты, обмены мнениями за круглым столом, студенческие конференции, конкурсы и соревнования, общественно-полезная и творческая работа, экскурсии и поездки, тематические вечера и т. д. Основным фактором, определяющим эффективность процесса обучения, является вовлечение студентов в активную жизнь аудитории. В это время следует использовать воспитательные технологии, которые интересны студентам.
***Ключевые слова**: студенты, нравственные качества, воспитательные технологии, формирование нравственных качеств, использование воспитательных технологий, учебный процесс, внеаудиторные мероприятия*

**Abstract**. Institutes and universities should use new upbringing technologies to develop students' moral qualities. At this time, the forms of activity are determined based on the pedagogical situation. These include: conversations, discussions and debates, round-table discussions, student conferences, contests and competitions, socially useful and creative work, excursions and trips, theme nights, etc. The main factor determining the effectiveness of the learning process is the involvement of students in the active life of the audience. At this time, upbringing technologies that are interesting to students should be used.
***Key words**: students, moral qualities, upbringing technologies, formation of moral qualities, use of upbringing technologies, teaching process, extracurricular activities*

Müasir təhsil müstəqil seçim edə bilən, müvafiq qərara əsasən məsuliyyəti öz üzərinə götürən, sosial fəallığa və müstəqilliyə yiyələnən, öz inkişafı qayğısına qalan və mənəvi təkmilləşməyə tələbatı olan "yeni tip" insanın təşəkkülünə yönəldilməlidir.

Müasir uşaq, yeniyetmə və gənclər özünəməxsus keyfiyyət və xüsusiyyətlərə malikdirlər və ötən əsrin uşaqlarından bir çox cəhətlərinə görə fərqlənirlər. Onlar fizioloji və psixoloji cəhətdən bəzən öz ata-analarına oxşamırlar ki, bu isə onların tərbiyəsində çətinliklərlə müşayiət olunur.

Müasir uşaqların başlıca xüsusiyyəti odur ki, onlarda yeni bir şüur növü var. Bu, XX əsr uşaqlarına məxsus sistemli-struktur deyil, sistemli-semantik şüurdur.

Uşaq, yeniyetmə və gənclərin sistemli-semantik şüuru ətrafdakı reallığı semantik reallıq kimi anlamaya əsaslanmışdır. Tələbəni maraqlandıran cisim və hadisələrin səbəb-nəticə asılılığı deyil, hərəkət, davranış, rəftar, hərəkət və əməllərin mənasıdır.

Tələbənin semantik istiqamətli olması onun inkişafının mənbəyi və stimulu rolunu oynayır. Tələbə oğlan və qız yerinə yetirməli olduğu tapşırığın, hərəkətin əhəmiyyətini qəbul və dərk edərsə, o vaxt onu yerinə yetirəcəkdir.

Ali təhsil müəllimi tələbələrin gündəlik həyatını və fəaliyyətini proqnozlaşdırır, təhlil və təşkil edir, nəzarəti həyata keçirir. Bu zaman o, öz fəaliyyətində təlim-tərbiyə işinin formalarından faydalanmaqla yanaşı, eyni zamanda tələbə kollektivi ilə işləmək təcrübəsində yeni texnologiyalarına müraciət edir. Pedaqoji vəziyyət nəzərə alınmaqla iş formaları seçilir.

Fəaliyyətinin texnologiyasına yiyələnmiş müəllim müdrik pedaqoq, şagirdlərin hər birində özünəməxsus şəxsiyyəti görməyə qadir olan, tələbələri pedaqoji diaqnostikaya əsasən hərtərəfli öyrənən, onunla pedaqoji əməkdaşlığı bərqərar edəndir. Tərbiyə texnologiyasının seçimindən əvvəl diaqnostika kimi mühüm amil qarşıda dayanır.

Bu fəaliyyətin səmərəliliyinə nəzarətin sadə və aydın mexanizmi yoxdursa, hansısa peşə fəaliyyətinin, o cümlədən müəllimin təhsil fəaliyyətinin olması mümkün deyildir. Odur ki, mənəvi tərbiyə prosesinin səmərəliliyinin diaqnostikası müəllimin və ali məktəbin çox aktual vəzifələrindəndir.

Bu diaqnostikanın məqsədi auditoriyada təşkil olunan mənəvi tərbiyə prosesinin tələbənin şəxsiyyətində müsbət dəyişikliklərə nə qədər səmərə verdiyindən xəbərdar olmaqdır.

Mənəvi tərbiyə nədir? Professor A.N.Abbasov bu suala belə cavab verir: "İnsanın ağlını, təfəkkürünü inkişaf etdirmək (*əqli tərbiyə*) nə qədər vacibdirsə, şəxsiyyətin mənəvi aləminin, mənəviyyatının, müsbət əxlaqi keyfiyyətlərinin formalaşdırılması bir o qədər mühüm və zəruridir. Gənc nəsli biliklər sistemi ilə silahlandırmaq, onda dünyagörüşü yaratmaq öz-özlüyündə hələ azdır, mənəvi cəhətdən kamil, əxlaqca saf vətəndaşlar tərbiyələndirmək cəmiyyətimizin özülünü, dayaqlarını möhkəmləndirmək deməkdir. İnsan nə qədər bilikli, savadlı, fiziki cəhətdən sağlam olsa da, əxlaqi baxımdan kasıb, mənəviyyatca yoxsuldursa, cəmiyyətin sağlam əsaslar üzərində bərqərar olduğunu söyləmək çətindir. Odur ki, qarşısında duran məqsədə və yerinə yetirməli olduğu vəzifələrinə görə tərbiyənin tərkib hissələri arasında mənəvi tərbiyə daha əhatəli, geniş və vacibdir. Müasir dövrdə, cəmiyyətimizin həyatında mənəvi amilin təsir dairəsinin genişlənməsinə daha çox ehtiyac yaranmışdır" [1, s. 187].

Əgər auditoriyada təlim prosesinin təşkilinin başlıca vəzifələri tələbə şəxsiyyətinin inkişafı və tələbə kollektivinin formalaşdırılmasıdırsa, onda onun aşağıdakı səmərəliliyi meyarları nəzərə alınmalıdır: şagird şəxsiyyətinin inkişaf dinamikası; tələbə kollektivinin inkişaf səviyyəsi və onun bu kollektivdəki mövqeyi bu inkişafın mühüm şərtləri kimi.

Mənəvi tərbiyə prosesinin səmərəliliyinin meyar və göstəricilərinin nəzərə alınması məsələlərinə diqqət yetirək:

1) Birinci və başlıca meyar olaraq tələbənin fərdi inkişafını, göstərici kimi onun şəxsi böyüməsinin nəzərdən keçirilməsi;

2) ikinci meyarı kimi sinif kollektivinin inkişaf səviyyəsinin nəzərə alınması;

Lakin tələbə kollektivinin inkişaf səviyyəsinə dəyər verilməsi mənəvi tərbiyə prosesinin səmərəliliyini qiymətləndirmək üçün yetərli deyil. Axı kollektiv həm şəxsiyyətin fərdiliyini, onun yaradıcılıq potensialını inkişaf etdirə bilər, həm də onun səviyyələndirilməsi prosesini meydana gətirə bilər. Odur ki, yalnız tələbə kollekti-

vinin inkişaf səviyyəsini deyil, eyni zamanda tələbələrin münasibətlərinin xarakterini öyrənmək vacibdir.

Bu, o deməkdir ki, sinifdə təşkil olunan tərbiyə prosesinin səmərəliliyinin üçüncü meyarı tələbənin kollektivdəki mövqeyi hesab edilir (göstərici: tələbələrin hər biri öz kollektivinə qəbul olunur, həmin kollektivdə onun dostları olur, onların diqqət və qayğısını hiss edir).

Mənəvi tərbiyə işini təkmilləşdirməyin mümkün yollarından biri pedaqoji kollektiv üzvləri tərəfindən məhsuldar pedaqoji ideyaların inkişafıdır.

Tərbiyə texnologiyalarından faydalanma mənəvi tərbiyə prosesini konkret məzmunla zənginləşdirmək üçün imkanlar açır, müəllimin peşəkar şüuruna aydınlıq gətirir.

Tərbiyə texnologiyalara sahiblənmək, onlardan faydalanmaq bacarığı müəllimə peşəkar fəaliyyətini uğurla həyata keçirməyə, tez bir zamanda səriştə qazanmağa imkan verir.

Tərbiyə texnologiyalarına aşağıdakı mühüm komponentlər aiddir: məqsədin müəyyənləşdirilməsi, məzmun komponenti, təşkilati və fəaliyyət komponenti, nəzarət və idarəetmə komponenti, diaqnoz, dizayn.

Məzmun komponenti düzgün müəyyənləşdirilmiş diaqnostik məqsədlə bərabər, tərbiyə texnologiyasının uğurunu və xarakterini diqqət mərkəzinə gətirir. Tərbiyə texnologiyasının informativ və ya inkişaf edən, ənənəvi və ya şəxsiyyət istiqamətli, məhsuldar və ya qeyri-məhsuldar olması onlardan xeyli dərəcədə asılıdır. Tərbiyə texnologiyasının səmərəliliyi də fəaliyyətin məqsəd və məzmununun əlaqələndirilməsi səviyyəsindən asılıdır.

Texnologiyaların hər biri şərti olaraq iki qrupa ayrılır: ənənəvi və həm də müasir.

Xeyli müddətdir ki, ənənəvi tərbiyə texnologiyalardan səmərəli şəkildə istifadə olunur. Fikir verək: 1) Qrup mənəvi tərbiyə işinin təşkili və aparılması texnologiyası. 2) Əməkdaşlıq pedaqogikası. 3) Humanitar – şəxsi texnologiya. 4) Kollektiv yaradıcılıq təhsilinin texnologiyası. 5) Humanist kollektiv tərbiyənin texnologiyası.

Hazırda yeni tərbiyə texnologiyaları da geniş vüsət tapmışdır ki, tələbələrdə mənəvi keyfiyyətlərin inkişaf etdirilməsi məqsədi ilə onlardan gen-bol istifadə olunur. Həmin tərbiyə texnologiyaları ilə tanış olaq: 1) sağlamlığın mühafizəsinə xidmət göstərən texnologiya; 2) şəxsiyyəti inkişaf etdirən dialoq texnologiyası; 3) informasiya və kommunikasiya texnologiyaları; 4) münaqişələrin pedaqoji həlli texnologiyası; 5) layihələrin texnologiyası; 6) sosial dizayn; 7) incəsənət texnologiyası.

Müasir tərbiyə texnologiyaları müəyyən səmərəli alqoritmə uyğun şəkildə reallaşır: 1) hazırlıq işləri (diaqnostika); 2) tələbədə mənəvi biliyə marağın meydana gəlməsi; 3) psixoloji münasibət; 4) mahiyyət hissəsi 5) son mərhələ; 6) gələcək üçün planlar.

Tələbənin mənəvi keyfiyyətlərinin inkişafına əlverişli şərait yaradan şəxsiyyətyönlü tərbiyə texnologiyasından istifadə məqsədəuyğundur. Şəxsiyyətönlü tərbiyə nəzərdə tutur ki:

1. Müəllim həm şəxsiyyətin, həm də kollektivin arzu, maraq və meyllərini nəzərə alır.

2. Tələbələrin mənəvi tərbiyəsi üzrə işlər aparılarkən humanist münasibətlərin bərqərar olması, bu əsasda tələbələrin hər biri özünü tam hüquqlu şəxs kimi hiss edir, digərlərini də şəxsiyyət kimi qəbul edib onların hörmətini saxlayır.

3. Müəllim tələbələrin hüquqlarına hörmətlə yanaşır.

Mühüm məsələlərdən biri də tələbələrin auditoriyadankənar tədbirlər zamanı psixoloji rahatlığıdır. Belə tədbirlər sayəsində tələbə oğlan və qızlar yorğunluqlarını çıxarırlar. Eyni zamanda digər onların hər birinin mənəvi tərbiyəlilik səviyyəsinin, yaradıcılıq imkanlarının aşkarlanması üçün stimul meydana gəlir. Mühazirə və seminar məşğələləri bu sahədə müəllimə öz köməyini göstərə bilər. İstər fərdin, istərsə də qrupun psixoloji xüsusiyyətlərinin modelləşdirilməsi, dizaynı, proqnozlaşdırılması və dəyişdirilməsi ilə əlaqədar problemlərin həll olunmasına istiqamətlənmiş tərbiyə texnologiyalarının tətbiqi mümkün olur.

Tərbiyə texnologiyaları arasında diqqət mərkəzində dayanan pedaqoji ixtilafların aradan qaldırılması texnologiyasıdır. Bu texnologiya subyektlər arasındakı münasibətlərdə ziddiyyətlərin konstruktiv şəkildə aradan qaldırılmasına xidmət edir. İxtilafların aradan qaldırılma meyarı münaqişə iştirakçılarının hər birinin daxili dünyasının zənginləşməsinə yönəldilir.

Mənəvi keyfiyyətlərin səmərəli şəkildə aşılanması və inkişaf etdirilməsində fərdi tərbiyə texnologiyası də özünəməxsus yer tutur.

Fərdi tərbiyə texnologiyası nəzərdə tutur ki:

1) müəllim ünsiyyətini yalnız bir tələbə ilə ("şəxsiyyət – şəxsiyyət" səviyyəsində) qurur;

2) tələbə ətrafındakı şəxslərdən yalnız birinin təsirini öz üzərində his edir;

3) tələbə özünü təhsilə geniş yer verməklə özü üzərində çalışır (dərslik, əlavə ədəbiyyat, sorğu kitabları, ensiklopediyalar, kompüter və s.)

2. Qrup, yaxud kollektiv tərbiyə texnologiyası. Tələbə akademik qrupun, ali təhsil müəssisəsinin tələbə kollektivinin köməyilə mənəvi keyfiyyətlərini inkişaf etdirməyi öz qarşısına qoyur.

Akademik qrupda bir sıra hallarda tələbələr arasında anlaşılmazlıqlar, mübahisələr baş qaldırır. Həmin anlaşılmazlıq və mübahisələrin təhrikçisi tələbə yoldaşlarını, hətta bəzən müəllimin özünü belə manipulyasiya edir. Akademik qrupun kuratoru xüsusi olaraq hər hansı bir səciyyəvi mübahisəni nümunə gətirir, həmin vəziyyətin müzakirə və təhlilini qrupda təhsil alan tələbələrə tapşırır. Bu da bir tərbiyə texnologiyasıdır. Bu tərbiyə texnologiyasını "hər hansı bir səciyyəvi mübahisə problemini nümunə gətirmək, onun təhlilini aparmaqla qrupda baş qaldırmış xoşagəlməz halən, ixtilafın aradan qaldırılması texnologiyası" adlandırmaq mümkündür. Diqqət yetirək:

1) akademik qrupun kuratoru mübahisə iştirakçılarının hər birinə yaranmış vəziyyətin mahiyyətini təsvir etməyə imkan verən suallarla müraciət edir;

2) "zərərçəkən tərəf"ə yaranmış vəziyyətin xoşagəlməz olduğunu, onun vəziyyətinin başa düşüldüyünü çatdırmaq;

3) bu tərbiyə texnologiyası ixtilafa girənlərin mübahisənin niyə baş verdiyini düşünməyə kömək edir;

4) bu tərbiyə texnologiyası yaranmış xoşagəlməz vəziyyətin həlli yollarını tələbələrlə müzakirə edir.

3. Situasiya texnologiyaları. Müəyyən tərbiyəvi situasiyalar yaradılmaqla tələbə tərbiyələnir, özünütərbiyə ilə məşğul olur. Onun mənəvi aləmi zənginləşir, o, əxlaqının saflaşdırılması qayğısına qalır.

Tərbiyə texnologiyaları arasında *mənəvi, əqli, fiziki və psixoloji sağlamlığa yönələn tərbiyə texnologiyaları* çox mühüm əhəmiyyətə malikdir, tələbələrin mənəvi keyfiyyətlərinin daha da inkişaf etdirilməsinə çox kömək edir.

Bu tərbiyə texnologiyası müəllimin tələbələrin səhhətinə, sağlamlığına ziyan gətirməmək istəyinə əsaslanan mənəvi tərbiyəyə sistemli yanaşmanı özündə birləşdirir. Akademik qrupun kuratoru öz fəaliyyətini əlverişli mənəvi və psixoloji atmosferin bərqərar olması; sağlamlığın qorunması və sağlam həyat tərzinin təşəkkül etdirilməsi istiqamətində qurur.

*Layihə fəaliyyətinin texnologiyası* da tərbiyə texnologiyalarındandır. Haqqında danışılan texnologiya tələbələrin hər birinin öz mənəvi tərbiyəlilik səviyyəsini nümayiş etdirməklə istedadını göstərməsi, yaradıcılıq potensialını həyata keçirməsi üçün şərait yaradır. Öz layihələrini təqdim və müdafiə etməyə hazırlaşan tələbələr təqdimatlarını elə şəkildə qururlar ki, onlar (*təqdimatlar*), aydın, məntiqli və əsaslandırılmış səciyyə daşısın, məntiq və təfəkkürdən əlavə nitq mədəniyyətini də inkişaf etdirsin. Auditoriyadankənar fəaliyyətlərdə layihələndirmə və tədqiqat fəaliyyətinin rolu təlim prosesinin tərkib hissəsi sayılır. Müəllimlər auditoriyadankənar fəaliyyətlər zamanı intellektual istiqamətə xüsusi fikir verirlər.

**Nəticə**.

Tərbiyə texnologiyaları tələbələrlə mənəvi tərbiyə üzrə iş formalarını şaxələndirməyə, onları daha yaradıcı etməyə kömək göstərir. Ali təhsil müəssisəsində təlim prosesində və auditoriyadankənar işlər zamanı başlıca vəzifə təşkil olunan tədbirlərin tələbələrin daha davamlı, yaradıcı və ahəngdar inkişafına nail olmaqdır. İnstitut və universitetlərdə mənəvi tərbiyə işini təkmilləşdirməyin səmərəli yollarından biri müəllim-tələbə əməkdaşlığı, müəllim-tələbə münasibətlərinin düzgün qurulması, təlim prosesinin, auditoriyanın, auditoriyadankənar işin, tələbələrin idarə olunması məsələsidir.

**Problemin aktuallığı**. Tərbiyə texnologiyalarından faydalanmaqla ali təhsil müəssisəsində tələbələrin mənəvi keyfiyyətlərinin inkişaf erdirilməsi aktual problemi özündə birləşdirir.

**Problemin yeniliyi**. Tərbiyə texnologiyalarından istifadə etməklə ali təhsil müəssisəsində tələbələrin mənəvi keyfiyyətlərinin inkişaf etdirilməsi problemi diqqət mərkəzinə gətirilmişdir.

**Problemin praktik əhəmiyyəti.** Məqalə gənc tədqiqatlar üçün maraqlı olacaqdır.

**Ədəbiyyat:**


1. Abbasov, A.N. Pedaqogika nəzəriyyəsi və tarixi: Ali təhsil müəssisələri üçün dərslik / A.N. Abbasov, L.A. Məmmədli, İ.B. Əmirəliyeva. - Bakı: Mütərcim, - 2022. - 464 s.
2. Abbasov, A.N. Pedaqogika: Müntəxəbat: Ali təhsil müəssisələri üçün dərs vəsaiti / A.N. Abbasov, R.R. Məmmədzadə. - Bakı: Mütərcim, - 2021. - 608 s.
3. Cəbrayılov, İ.H. Ümumtəhsil məktəblərində tərbiyə işinin təşkili: Metodik vəsait / İ.H. Cəbrayılov, V.C. Xəlilov, K. Mikayılova. – Bakı: CH Poliqrafiya, 2023. – 242 s.
4. Cəbrayılov, İ.H. Şagird nailiyyətlərinin qiymətləndirilməsinin pedaqoji əsasları: Metodik vəsait / İ.H. Cəbrayılov, N.Ş. Muradova, K. Mikayılova. – Bakı: CH Poloqrafiya, 2023. – 100 s.
6. Məmmədli, L.A. Pedaqogika nəzəriyyəsi: Ali təhsil müəssisələri üçün dərs vəsaiti / L.A. Məmmədli. - Bakı: Mütərcim, - 2022. - 232 s.


**Redaksiyaya daxil olub**: 27.01.2025